*90 illiyi qarşısında*

# ŞAİR SƏRDAR ƏSƏD

## “ARALANIB GÖZÜMDƏN FİKRİMDƏ YAŞAYIRSAN”



*Qəzənfər KAZIMOV,*
*SSməkdar elm xadimi,*
*professor*

*(Əvvəli ötən saylarımızda)*

Hər addımı bir qulacdan uzun olan, paqonsuz generala bənzəyən, yeriyən təpə kimi görünən, enli kürəyində neçə adam gizlənə bilən Əlimərdan öz görkəmi və ciddiyyəti ilə oğru sobanı qorxudur:

Çal papağa qısılmışdı iri başı,
Gözlərini gizləmişdi qara qaşı.

Ciddi-ciddi dönüb üzə hər baxanda,
Göz qorxudur, qol boşaldır, ürək qırır.

Çoban Alı da öz görkəmi ilə xüsusi təəssürat yaradır:

Baş çobanı görüb Alı gəldi bəri,
Sürünürdü şinelinin ətəkləri.
Qara bığı uzun idi - ənsa boyu,
Gen kürəyi, tox sifəti, qısa boyu -
Səni gendən çağırardı tanımasan,
Uzun idi dəyənəyi öz boyundan.

Mənəvi və fiziki sağlamlığını nəzərə alaraq müəllif onları qoşa təpəyə bənzətmişdir.

Sovet hakimiyyətinin bu illərində - poemanın qələmə alındığı dövrdə kolxoz malına münasibət ciddi idi - oğurluq mümkün deyildi. Üstü dərhal açılırdı. Çünki hamı göz qoyurdu. Dövlətə kiçik bir işarə bəs idi. Əlimərdan kimi, Alı kimi, fermanın təsvir edilən müdiri kimi ciddi və namuslu adamların gözlərindən şey yayındırmaq olmazdı. Onlar dərhal sürüdəki yad heyvanlardan şübhələnirlər: Bir şübhə var bu işdə:
Elə bəlkə Qəzənfər gündüz yatıb örüşdə,
Sürüyə əl gəzibdir, erkəyi üzləyiblər.

İri qoçların da yad heyvanları kəllələyib sürüdən sıxışdırması onların şübhələrini artırır. Səhər açılan kimi heyvanları saymağı qərarlaşdırırlar. Lakin onlar sürünün çobanından hələ şübhələnmirlər: ola bilsin ki, yatıb, sürüyə başqa heyvanlar qarışıb, yaxud başqa fermaların çobanları sürüyə əl gəzdirib. Yaxında gizlənmiş çoban onların bu fikrini eşidib çıxış yolu tapır. Gecə ikən toğluları verib, erkəkləri qaytarır. Amma çoban Alıya qarşı daxilində qərəz artır: " Min gözü var sanki zalım oğlunun". Yağışlı, tufanlı bir havada Alıya köməyə gəldiyini bildirib, onu aldatmaq, özünə qarşı yumşaltmaq istəyir:

Əl atmasın o, hədəyə, qorxuya,
Nəvazişim versin onu yuxuya.

Oğurluq etməyə çalışan çobanın zahiri görünüşünü də müəllif səciyyəvi detallarla verməkdir:

Sanki qəlbindəki bütün kini o,
Darısqal alnında qırışdırıbdır.
Yekəpər, yöndəmsiz bədənini o,
Döşəyə güc ilə sığışdırıbdır.

Küsdü bir-birindən onun çəp gözü - dedikdə müəllif onun gözlərinin hərəsinin bir tərəfə baxdığını, yəni çəp olduğunu söyləmiş olur.

Ədəbiyyatımızda yaylaq təsvirləri çoxdur. Sərdarın təsvirləri də təbii və gözəldir:

Çadırlar yan-yana, kümələr qoşa, -
Görün bir-birinə necə qısılmış.
Üçayaq çatmalar vermiş baş-başa,
Kölgəlik altında nehrə asılmış.

Bu yanda süd çəkən maşın qoyulmuş, -
Fırlanan çarxların əli istidir.
Bidonlar düzülmüş, qablar yuyulmuş,
Ocaq yerlərindən qalxan - tüstüdür.

Oğru çoban hər bir əlverişli məqamda Alının məhvinə çalışır. Lakin bunu çox ustalıqla edir. Tuta bilmirlər. Məlum olur ki. yağışlı-tufanlı gecədə kim isə Alını çomaqla vurmaq istəyib. Şimşək çaxarkən Alı düşmənini görsə də, kim olduğuna seçə bilməyib. Bunu baş çoban Əlimərdan da müşahidə etmişdir:

Şahidi olduğu o hekayəti,
Baş çoban özünə dərd eləmişdi.
Şimşək göstərsə də o cinayəti,
Gecənin zülməti pərdələmişdi.

Çaydan balıq tuturlar - torsuz, tilovsuz, əlləri ilə. Qəzənfərin əli gətirmir, kənarda gəzir. Əlimərdan ilə Alı xeyli balıq tutmuşlar. Dağ yeridir, hər an hava dəyişir. Yenə qəfil hava tutulur. Qəfil gələn sel çobanları haqlayır. Əlimərdan birtəhər xilas olsa da, Alını sel götürür. Qəzənfər Əlimərdana kömək etmədiyi kimi, Alıya da əl uzatmır. Sudan güclə çıxmış Əlimərdan onu güllə ilə hədələyib suya salır, qəsdən çox ləng tərpənsə də, məcbur olub Alını xilas edir.

Alının halı çox pisdir, qızdırma içərisində sayaqlayır, ölüm qorxusu çobanları narahat edir. Şair də qəhrəmanının salamat qurtarmasını istəyir:

Ey məni gəzdirən şeir atı, gəl,
Günahkar olmayaq arada biz də.
Qoruyaq, saxlayaq bir həyatı gəl,
Bədxəbər olmasın qələmimiz də!

Qəzənfəri həkim dalınca göndərirlər. Lakin gəlib çıxmır. Kənddən gələn maşının sürücüsü onu yol kənarında istirahətdə gördüyünü bildirir:

Gündüz gördüm onu yol üstündə mən,
Kefdə-damaqdaydı yenə bəxtəvər.

Xeyli aralıdan tanıdım, bəli,
Elə bil, gördənə bizi çaşdı o.
Yatmışdı - başının altında əli,
Atı çidarlayıb buraxmışdı o.

Çox axtarıb, həkim tapmadıqda yorulduğu üçün yıxılıb yatdığını bildirən Qəzənfər Alıya hər cür yarınmağa çalışır: qonaq aparır, sürüsünü otarır, əvəzinə keşik çəkir, yanından ayaq çəkmir:

O xəstə olanda ağladı hərdən,
Dizini göyərtdi, başını yoldu.
Dostluq söhbətindən, dostluq sözündən,
Alının necə də qulağı doldu.

Alını müəyyən dərəcə inandıra da bilir. Alı təsadüfən kənddən istirahətə gəlmiş həkimin köməyi ilə sağalır, ona hər an "qardaşım" deyən Qəzənfərə təşəkkürlər edir:

Sağaldı günbəgün, qalxdı yataqdan,
Gözündə Qəzənfər yaman ucaldı.
O seli, qorxunu düşünən zaman,
Öpdü Qəzənfəri, razı da qaldı.

Alı kimi öz işinə fərəhlə qulluq edən fərasətli zəhmət adamları o dövrdə payız vaxtı baş şəhərdə - sərgi iştirakçıları arasında təntənəli mərasimlərdə iştirak edirdilər. Təzəcə sağalmış Alını da baş çoban Əlimərdan Moskvaya gedəcəyi barədə şad xəbərlə sevindirir.

Qəzənfərdə yenə də qısqanclıq və həsəd baş qaldırır: mən də Alı kimi obaşdan dururam, mən də onun kimi heyvana duz verirəm, mən də doyurmamış otlaqdan ayırmıram, niyə onun qoyunları tez kökəlir? Niyə hər yerdə Alı təriflənir, niyə sərgiyə tək o gedir?

Məlum olur ki, Qəzənfərin daim Alıya yarınmasının dərin kökləri varmış. Alı da, Qəzənfər də alman əsirlik düşərgəsində olmuşlar. Qəzənfər almanlara xidmət edəndə Alının onu görmüş olduğunu güman edir. Ona görə də iki çoban təpədə oturub uçan quzğuna baxarkən Alının xaç-nişan alman təyyarələrini lənətlə xatırlaması və aşağıdakı sözləri onu qorxuya salır:

Of... yadıma düşdü yenə o əsir düşərgəsi,
Satqınların, qorxaqların unudulmaz hiyləsi! -

Hələ əsirlik düşərgəsində olarkən o, Alının bu xəbəri vətənə aparmamasına çalışmışdır:

Səsini batırım yeri düşəndə,
Qorxulu fikirlər məni az alsın.
Bir vədə sorağı dönsə də kəndə,
Alının məzarı burada qalsın...

Alı orada da mərd olmuşdur. Patronu lülədə olan düşmənlə qorxmadan üzüzə dayanmışdır:

Keşikçi gözünü qırpmadan baxır.
Bu bahar gözləyir, o birisi qış,
Bu zindan qoruyur, osa qurtuluş.
Bu başqa adamdır, o başqa adam,
Birində silah var, birində inam.

Alı faşist keşikçisini öldürüb paltarını geyərək, iki əsir komandir yoldaşlarını da götürüb qaça bilir. Qəzənfər onun qaça bildiyini eşidib yenə də iztirablı günlər keçirir:

Gecikdim, salamat qaçdı Alı, yox -
Salamat qaçırtdı o xəbəri də.

Qələbədən illər keçsə də, ürəkdəkilər unudulmur:

Çovğunlu, boranlı o illər ötdü,
Amma ki, ötmədi ürəkdəkilər.

Nə qədər pərdələməyə çalışsa da, yavaş-yavaş çobanın xislətindəki naqis cəhətlər görünməyə başlayır. Fermanın müdiri, baş çoban və Alı dərhal onun üstünü alırlar:

Sırağa gün bəs örüşdə niyə sən
Qumral-kərə qoçu tutub kəsmisən?

Sovet dövrünün xırdaçılıqlarından biri kimi görünür. Lakin bu indiki milyardlarla sorğusuz-sualsız oğurluqlara parodiya kimi səslənir. Bir tərəfdən də o, Alıya çatacaq çağırış məktubunu onun ələ keçirib gizləməsi qeyd edilən üçlüyü çox təəccübləndirir.

Bütün şübhələri onu çox qorxulu bir yola çəkir. Ona "Getmə!" deyən aləmin sözlərini də eşitmək istəmir. Bunlar poemanın səlis diskurslarındandır:

Tələsərək Qəzənfər,
Aralaşdı fermadan.
Üstünə axşam endi,
Qarşısına sıx duman.
Keçdi daşın üstüylə,
Qayanın arasıyla.
Dağlar onu bürüdü,
Sükutla, sırasıyla.
Kəsib bulaqlar yolu,
Burdan ötmə, - deyirdi.
Əyilərək təpələr,
Qayıt, getmə, - deyirdi.

Qəzənfər Alının sürü ilə keçəcəyi bərəni müəyyənləşdirib, onu daş, qaya uçqununa tutub məhv etmək istəyir. Alı ağır yaralanır. Lakin düşündüyü bu fəlakətli uçqun onu törədən çobanın özünün məhvinə səbəb olur. Alının atdığı güllənin səsinə çobanlar tökülüşüb gəlirlər. Qəzənfər aradan çıxmağa çalışsa da, yıxılır, ağır yaralanır və ölür. Cibindən Alının faşist geyimində iki sovet komandirini apardığı səhnənin şəkili və Alının sərgiyə çağırıldığı barədə göndərilmiş məktub çıxır.

Bilsələr də ki, kin bəsləyib Alını öldürmək istəyən o imiş (Alının başının üstündə görünən çomaq, daşın zamanı Alının xilası üçün ləng hərəkəti, həkim dalınca gedərkən uzanıb çəməndə yatması, əliəyriliyi, xalq malına kəmfürsət münasibəti, məktubu gizləməsi, daşları, qayaları Alının üstünə uçurması və s.), bir insan kimi, peşmançılıq keçirirlər, onu xilas edə bilmədikləri üçün təəssüf edirlər, hörmətlə dəfninə çalışırlar:

Adam cərgələndi səssiz-səmirsiz,
Bitib-tükənmədi qüssənin sonu.
Hamı vaysındı ki, gecikmişik biz,
Qurtarmaq olardı ölümdən onu.

Sərdarın çap olunmamış poemalarında tək-tək zəif, bəzən ahəngi pozan misralar da var. Nəzərdə tutsa da, üzərində yenidən işləməyi çatdırmayıb. Fikrimizcə, şair üçün əsas fikirdir, həyat hadisələrini ümumiləşdirə bilmə, səbəbi göstərməklə nəticə çıxarmağı bacarma istedadıdır. Sərdar həyatı gözəl bilirdi, odur ki poemalarında fikir bir növ sel kimi axır, hər hansı bir hadisəni dolğun şəkildə, obrazlı əks etdirməkdə çətinlik çəkmir. Qafiyəyə gəldikdə, fikir olduqdan sonra qafiyənin doğulması heç bir çətinlik törətmir və Sərdarın bu cəhətdən də çətinliyi olmayıb.

Təsvir etdiyi zəhmət adamlarının, qəhrəmanların prototipləri əksərən onun gördüyü, tanıdığı, müşahidə etdiyi real insanlardan ibarətdir. "Oğul" poemasının qəhrəmanı Qəşəm onun qonşusu idi, həqiqətdə də gənc və zəhmətsevər bir insan idi. Adını çəkməsə də, Qəşəmin atası kimi təsvir etdiyi insan Qəşəmin atası deyil, əmisi idi. Qəşəmin atası müharibədə həlak olmuşdu. Həqiqətdə də əmisi Mehdi kişi ona ataüq etmiş, onu atası kimi sevmiş və böyütmüşdür. Qəşəm bizim yaşıdımız, məktəb yoldaşımız idi. Mehdi kişi 30-cu illərdə kollektiv təsərrüfatda traktor meydana çıxanda onun ilk sürücüsü olmuşdur və bu balacaboy, lakin daim öz sözü olan, heç kəsə boyun əyməyən, ictimai nöqsanları ictimai təşkilat nümayəndələrinin gözünün içinə deyən bir kişi idi. 1961-ci ildə mən kənddə şagirdlərə pambıq yığdıranda belə bir hadisə olmuşdu: rayon rəhbərləri, birinci katib də başda olmaqla kəndə gəlib pambıq toplanışının vəziyyəti barədə müşavirə keçirmişdilər. Bütün briqadirlər planı 120-150 faiz ödəyəcəklərindən danışdığı halda, Mehdi kişi demişdi:

-Özün öldürsün, planı 40 faizdən yuxarı qaldırmaq mümkün olmayacaqdır. Çünki pambığı vaxtından əvvəl təyyarə ilə dərmanlayıb bütün qozaları məhv etmisiniz.

Bunu katib özü də bilirdi, hamı bilirdi. Amma heç kim demirdi, yalnız Mehdi kişi üzə vurdu.

Əsərdə Mehdi kişinin (adı çəkilməsə də) və onun oğlu kimi təsvir edilən Qəşəmin əmək fədakarlığı yeni quruluşun insanlara verdiyi ruh yüksəkliyindən, əkin-biçinə yaranan şərait və tələbdən irəli gəlirdi.

***(Davamı 9-cu səhifədə)***

# ŞAİR SƏRDAR ƏSƏD

## "ARALANIB GÖZÜMDƏN FİKRİMDƏ YAŞAYIRSAN"

*(Əvvəli 8-ci səhifədə)*

Ata öz oğlundan bir növ şikayət edir ki, o, fədakarlıq göstərir, canına qəsd edir, durub-dincəlmir. Ağır xəstə olduğu, iş prosesində növbə ilə oğlunu əvəz edə bilmədiyi, ona kömək edə bilmədiyi üçün üzülür, əzab çəkir. Lakin oğul öz yuxusuz gecələri hesabına əkini vaxtında başa çatdırır, kolxozun işinin pozulmasına imkan vermir.

Əsərdə əməyin, əmək adamlarının coşğunluq və fədakarlığı öz əksini tapmışdır:

Gəlir iş üstünə qızlar, gəlinlər,
Bu düzü bürüyən çiçəklər kimi.
Necə fərəhlidir o doğma günlər, -
Könüldən çıxmayan diləklər kimi...

Şimşəkmi oynayır əl-ayağında, -
Çalışır maşını nizamla sürsün.
Söz verib komsomol yığıncağında,
Hər gecə bir günün işini görsün.

Heç şübhəsiz, Qəşəm kimilərin tərbiyəsində böyük Lenin komsomolunun misilsiz rolu var idi və gəncliyi daim yüksək ideallar uğrunda mübarizəyə yönəldirdi. Poemada da komsomola bu cür yüksək münasibət var:

Komsomol! Sən Leninin
O dahinin eynisən;
Onun iş paltarını
Öz əyninə geymisən!
Salon qalxıb nə qədər
Sənin adın gələndə!
Çiçək açıb çəmənlər
Bayrağın yüksələndə!
Zəhmət harda, iş harda,
Zəfər harda - ordasan!
Çətin vuruşmalarda
Qalib gələn ordusan...

Bu cür sözlər insan əxlaqını pozan, rüşvətxor və yaramaz kapitalizm cəmiyyətində yaşayan və bu cəmiyyətin qaydasız qaydalarına tez alışan insanlar üçün indi qəribə səslənə bilər.

Yeni quruculuq işləri illərlə boş qalan, əkin-biçin görməyən susuz çöllərə üz tutur, min illərlə bel dəyməyən torpaqların barlı-bərəkətli tarlalara çevrilməsinə səbəb olur. Əkinsiz, biçinsiz, susuz yatıb qalan çöllərin diriliyi bu illərdə başlayır:

Getdikcə bu düzün qurtarmır sonu,
O düz ki, bir dəfə yaşıl geyməmiş.
Deyirlər, bu yerin illər uzunu,
Hələ torpağına kotan dəyməmiş.
Yanan boğazından su da ötməmiş,
Burnuna dəyməmiş bir çiçək iyi.
Bir yol ayaqları sərinlətməmiş,
Nə bir göyərtisi, nə də nəmliyi.

Ata və oğulun fədakar əməyi, zəhməti bu cür düzlərin gələcəyinə sevincli ümidlər yaradır:

Gəzib dolandılar çiyin-çiyinə;
Ata min ümidlə oğluna baxdı,
Sevindi çöllərin gələcəyinə!..

Baş qəhrəmanının belə konkret prototipi olan poemalardan biri də "Lal Əli" poemasıdır. Bu Əlini mən görmüşdüm, 40-cı illərin sonlarına qədər yaşayırdı.

Kəndimizin - Soltanlının ərazisi böyükdür. Gündoğan tərəfdən Əmirvarlı, günbatan tərəfdən Göyərçin Veysəlli kəndləri ilə həmsərhəddir. Cənub tərəfindən Araz çayı axır, şimalı təpəliklərlə əhatə olunmuşdur. Kənd ərazisinin yarıdan günbatana tərəf sahəsi hündürdür, yayla şəklindədir. Həmin hissə bir az əvvəl qeyd etdiyimiz Topçax düzüdür. Gündoğan tərəf ərazilər bir qədər alçaq ərazilərdir. Kənd evləri bu ərazilərdə yerləşmişdir. 30-cu illərdə kollektivləşmə zamanı kəndi yuxarı - yaylaya köçürmüşlər, aşağı həyət yerlərini tut bağlarına və əkin sahələrinə çevirmişlər. Lakin hələ 50-ci illərə qədər bir sıra dam evləri qalırdı - Şikar kişinin damı, Lal Əlinin damı kimi. Evlər dam evlərindən ibarət idi, yalnız böyük daş yolun qırağında Fərman müəllimgilin müasir tipli otağı da qalmaqda idi.

Lal Əli yeni kəndə köçmədi və ömrü boyu öz dam evində təkcə yaşadı. Tək yaşadığından xamır yoğurub ocaqda kömbə bişirib yeyərmiş və yaxşı bişməmiş kömbələrdən qarın ağrıları olduğunu və sonda belə bir ağrıdan öldüyünü mən də eşitmişdim.

Arabir kəndə gələrdi. Həqiqi mənada lal idi və müharibəyə getməmək üçün özünü lallığa vuranlardan deyildi. Sərdarın poemada təsvir etdiyi kimi, uca boylu, arıq bir kişi idi. Sərdar onun Sədayə adlı qızla sevgisinə poemada geniş yer vermişdir. Mən bu sevgi haqqında eşitməmişdim. Sərdar məndən 7-8 yaş böyük olduğu üçün eşidə bilərdi.

Sədayənin atası Məşədi Səlim tavanalı bir kəndli olmuşdur. Heyf ki, mən bu məlumatı gec öyrəndiyim və kəndin qocaları artıq dünyasını dəyişmiş olduqları üçün belə bir kişinin olub-olmadığını dəqiqləşdirə bilmədim. Lal Əli bir müddət ona nökərçilik etmiş və bu zaman onun qızı Sədayəni görmüş, sevmişdir. Məşədi Səlim də onun sədaqətli nökər olduğunu görüb, qızını ona verəcəyini bildirmişdir. Lakin 30-cu illərdə kulaklara münasibət pisləşdiyi zaman Məşədi Səlim "qulluqçu, nökər üzə duranda ağır zamana dəyanət tapmayıb" İrana qaçmışdır. Qaçarkən sərhədçilərin gülləsi ilə yaralanmışdır.

Əsərdə Medvedyev surəti var. O da tarixi şəxsiyyətdir. 30-cu illərdə Cəbrayıl, Füzuli ərazilərində sərhəd qarovulxanasının rəisi olmuşdur. Bizim kəndlə əlaqəli macəraları çoxdur ("Ömrümdən anlar" kitabımda yazmışam). Sərdar onu yaxşı təsvir edib, həmişə adyudantı ilə bir gəzərmiş və bizim Aşağıoba kənd məhəllələrində çox görünər, camaatın davranışına nəzarət edərmiş:

Cığır döngəsində, körpü yanında,
Günəşli axşamın alışqanında,
Qürub işığında, gül nəfəsində
Xallı turacların nəğmə səsində
Beli tapançalı, altı kəhərli,
Sol yanı kordalı, qoşa kəmərli,
İki sərhədçinin müşayətilə
Medvedyev qəfildən çıxdı sahilə.

Bu təsvir lap "Yevgeni Onegin"də A.S.Puşkinin sadə, gözəl, təbii təsvir üsulunu yadıma saldı.

Bu yerlərə gələnə qədər Medvedyevin övladı olmurmuş. Bizim sərhəd qarovulxanasına rəis təyin olunduqdan az sonra arvadı hamilə olmuş və həmin uşaq sonralar çox yüksək vəzifələrdə işləmişdir.

Medvedyevin oğlu Vadim Medvedyev haqqında məlumat: Vadim Andreyeviç Medvedyev 1929-cu il martın 29-da Yaroslavl Vilayəti Danilov rayonunun Moxonkovo kəndində anadan olmuşdur, rusdur. Kommunist Partiyasının XXVII qurultayında Sov. İKP MK-nın üzvü, Mərkəzi Komitənin 1986-cı il mart plenumunda Sov.İKP MK katibi seçilmişdir. Sov.-İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Elmlər Akademiyasının müxbir üzvü olmuşdur.

Medvedyev Əlidən bir müddət mehtər kimi də istifadə etmişdir. O, Əlini başa salır ki, Məşədi Səlim onların gülləsindən yaralansa da, sağalıb və qızı Sədayəni İranda ərə verib, daha onu gözləməsin. Lakin Əli bütün ömrünü daha çox Arazın o tayına gözlərini zilləməklə keçirir və hadisələri də əksərən bu prosesdə xatırlayır.

Sərdar ömrünə qıymasa idi, bu poemanın və bir sıra başqa poemalarının da üzərində yenidən işləyə bilərdi. Çox şeyi bir qədər yarımçıq qoyub.

"Lal Əli" poemasından əlavə, Sərdarın "Lal" poeması da var. Əsərdə lal-kar adamın keçirdiyi mənəvi-psixoloji düşüncə və sarsıntılar ümumiləşdirilmişdir. 5 yaşında olarkən ağır xəstəlikdən dili və qulaqları tutulan



bir gəncin həyat yolu, görmək, eşitmək, danışmaq istəkləri bu şeylərdən məhrum olmayan oxucunu şükürlər etməyə məcbur edir. Evdə paltarın ən nimdaşlarını geyir, kiçik yaşlarından qoyun otarmaqla, çoban kimi örüşlərdə olur, ağır sənaye dəzgahları arxasında işləyir, hamıdan tez durmalı, hamıdan gec yatmalı olur. Odur ki şəhərdə tramvayların da ilk sərnişini o olur (Sonralar İsi Məlikzadənin Batonu metro qatarlarının ilk sərnişini olduğu kimi):

Minir işə gedənlər,
Gileylənmir konduktor.
Onlar ilə nə işi,
Burdadır ilk sərnişin.

Qulağının açılması, dilinin danışması üçün çarələr axtarır, həkimlərdə olur:

Çox şəhərə yol etdi,
Çox həkimə yanaşdı;
Dilin dilsizliyini
Əli ilə danışdı:
"Mən atamla, anamla
Danışmaq istəyirəm.
Küsdüyüm hər adamla
Barışmaq istəyirəm.
Həkimlər, ay həkimlər,
Məni darda qoymayın,
Yüz qıfılın sirrini
Bir açarda qoymayın!
Söz duyan, söz soruşan
Qulağımı açın siz.

"Dil nə qədər şikəstsə, Qəlb o qədər naxoşdur" - deyən müəllif dilsizliyin əzablarını faktik detallarla izah edir: Çox şəhərə yol etdi, Çox həkimə yanaşdı; Dilin dilsizliyini Əli ilə danışdı.

"İnsan mənəviyyatı dərd əlində qalmasın" deyə yaxşı insanlar, dostlar ona kömək edirlər:

Təzə güllə, çiçəklə
Dostlar alıb araya -
Hər il göndərirdilər
Ta nə bilim haraya!
Ətrafı dərdə qalan,
Duyğulu insan idi.
Ona adi təbəssüm
Mənəvi dərman idi.

Təbii ki, şəhərdə yol qaydalarını pozduğu, ala-bula ağacla milisioner tərəfindən saxlandığı, 30 qəpik cərimə olunduğu (İndiki cərimələr!) hallar da baş verə bilən hallardan idi.

Həkimlər onun sağalacağına ümid edirlər, başa salırlar ki, birdən-birə bütöv kəlmələri deyə bilməyəcəkdir, çalışıb hər səsi uzun tələffüz etməklə öyrənmək lazımdır. Uzun müalicədən sonra krantı açarkən İlk dəfə suyun şırıltısını eşidir, balkonda tək uşağın yıxıla biləcəyi qorxusu ilə çığıraraq dediyi "ey...van", "u-u...şaq" sözləri açılmaqda olan dilinin ilk səsləri idi.

Şair poemada insana qayğı və humanizmi, həkimin öz andına sədaqəti məsələlərini, yaradılışda, insan mənəviyyatının inkişafında səsin, sözün rolunu bir nümunə kimi lalın simasında maraqlı detallarla ifadə etmişdir.

Şairin növbəti poemalarından biri olan "Yadigar" poeması 28-31 may 1959-cu il tarixlərində "Azərbaycan müəllimi" qəzetində çap olunmuşdur. Bu qəzet bizə çox əzizdir və mən onu böyük minnətdarlıqla xatırlayıram. Çünki qəzetlərin qıt olduğu bir zamanda məktəblə, tədrislə, dərsliklə, kitabla bağlı məsələlərdə hər gün əlimizdən tutmağa hazır olan bir qəzet idi.

Poema o dövr üçün tipik olan və indi də öz əhəmiyyətini itirməyən bir mövzuya həsr olunmuşdur. Çoxlarının ataları, çoxlarının övladları müharibədə həlak olmuşdu. Yeganə övladını itirən analar, ata-anasını itirərək yetim qalan övladlar saysız idi. Şairin təsvir etdiyi müəllimə Səriyyə öz yeganə övladını müharibədə itirdiyi kimi, onun sevimli şagirdi Yadigarın da atası müharibədə həlak olmuş, anası isə vaxtsız ölmüşdür. Müəllim bu cür uşaqlara qayğı ilə yanaşır, öz övladı kimi baxır, onların xəstələnərək dərsə gəlməməsindən həyəcanlar keçirir.

Səriyyə coğrafiya müəllimidir və o, uşaqlara yalnız Azərbaycanın geniş çöllərini, dağlarını, meşələrini, çaylarını deyil, dünyanı tanıdır və təbii ki, onun ölkələrə, qitələrə münasibətində o dövrkü SSRİ vətəndaşlarının münasibəti öz əksini tapmışdır.

Yenə qitələrə baxdı Səriyyə,
Milyon anaların gözüylə baxdı.
Sanki bütün xalqlar qovuşsun deyə,
Sərhədlər bu saat qırılacaqdı.
Bir kağız üstünə dünyalar sığır,
Dünyaya sığmayır dünyadakılar.
Budur Almaniya - bölünmüş diyar,
Rəngi də sarıdır, dərdi var kimi.
Bu yanı o yanın dərdinə ağlar, -
Yarı iflic olmuş adamlar kimi.
Bu da İngiltərə, o da Amerika,
Qopmuşdur dünyadan küskünlər kimi.

Vətənə məhəbbət isə xüsusi nəzərə çarpır:

Budur SSRİ - könül nübarı,
Gülür xəritədə qızıl rəng ilə.

Döyüşlər şahidi Sevastopolu, Çubuğun ucuyla göstərir bu dəm - misraları mənə coğrafiya dərslərimizi xatırlatdı. Sərdarın da, mənim də müəllimim Rzaqulu Hacıyev yönü bizə tərəf durar, çubuqla arxada şəhərləri, çayları, sərhədləri sərrast göstərərdi.

*(Davamı var)*